


# ŞƏRQ qapısı

Doğma, canım-varlığım qədər sevdiyim Azərbaycanım mənim qibləgahımdır

Qəzet 1921-ci ildən çıxır

Təsisçi: Naxçıvan Muxtar Respublikası Ali Məclisi və Nazirlər Kabineti

Sayı: 165 (24.052)

1 sentyabr 2022-ci il, cümə axşamı

Gündəlik ictimai-siyasi qəzet

www.serqqapisi.az

Qiyməti 20 qəpik


## Rəsmi xronika

Avropa İttifaqı Şurasının Prezidenti Şarl Mişelin dəvəti ilə Belçika Krallığının paytaxtı Brüsseldə işgüzar səfərdə olan Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin avqustun 31-də Avropa İttifaqı Şurasının Prezidenti Şarl Mişel və Ermənistanın baş naziri Nikol Paşinyan ilə görüşü keçirilib.

Avropa İttifaqı Şurasının Prezidenti Şarl Mişelin Brüsseldə Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev və Ermənistan Respublikasının baş naziri Nikol Paşinyan ilə keçirilmiş üçtərəfli görüşün yekunlarına dair mətbuata bəyanatında məlumat verib ki, Ermənistan və Azərbaycan arasındakı dövlətlərarası münasibətləri nizamlayan sülh müqaviləsinin irəliləməsi istiqamətində substantiv işin sürətləndirilməsi ilə bağlı razılığa gəlinib. Xarici işlər nazirlərinə layihə mətnlərinin hazırlanması üçün bir ay ərzində görüşmək barədə tapşırıq verilib.

Üçtərəfli görüşdə, həmçinin humanitar məsələlər, eləcə də minaların təmizlənməsi, əsirlər və itkin düşmüş şəxslərin taleyi barədə ətraflı müzakirələrin aparıldığını bildirən Şarl Mişel vurğulayıb ki, Avropa İttifaqı bu məsələlərlə məşğul olmaqda davam edəcək.

***

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev İtaliya Respublikasının Prezidenti Sercio Mattarellanın dəvəti ilə avqustun 31-də Romaya işgüzar səfərə gəlib.



*Ölkəmizin yüksək inkişaf göstəricilərinin, adətən, mərkəzlərdə qazanılması reallıq kimi qəbul edilir. Bu, ali məktəblərə qəbulun nəticələrində də bəlidir. Başqa sözlə desək, belə qəbul olunub ki, şəhərlərdə təhsil alıb imtahan verən məzunlar kənd yaşayış məntəqələrində oxuyan şagirdlərlə müqayisədə daha böyük nəticələr əldə etməlidirlər. Naxçıvan Muxtar Respublikasında son illər qeydə alınan qəbul göstəriciləri isə bu prinsipi, necə deyərlər, alt-üst edib. Nəticələrə nəzər yetirdikdə şəhər və rayon mərkəzləri ilə yanaşı, kəndlərdə, hətta şagird kontingenti azlıq təşkil edən ən ucqar yaşayış məntəqələrində də yüksək nəticə göstərən abituriyentlər əksəriyyət təşkil edir. Buna səbəb isə həyata keçirilən infrastruktur quruculuğu nəticəsində kəndlərimizin də şəhərləşməsidir. İnfrastruktur layihələrinin əsas istiqamətini təhsil quruculuğu təşkil edir. Yaxın-uzaqlığından, böyük-kiçikliyindən asılı olmayaraq, bütün yaşayış məntəqələrində ən müasir tədris şəraiti yaradılıb, məktəblər ixtisaslı pedaqoji kadrlarla komplektləşdirilib. Bu isə, nəticədə, tədrisin keyfiyyətinin yüksəlməsinə və ürəkaçan nəticələrin əldə edilməsinə gətirib çıxarır. 2022-2023-cü tədris ilində muxtar respublikada təhsil quruculuğu istiqamətində görülən işlər, yeni tipli təhsil müəssisələrinin fəaliyyəti bu sahənin inkişafına böyük töhfə verəcək.*

**Təhsil millətin gələcəyidir**

# Yeni yaradılan müasir təhsil müəssisələri muxtar respublikada təhsilin inkişafına öz töhfəsini verəcək

### *Naxçıvan Şəhər Kimya-Biologiya Təmayüllü Lisey bu sahədə ixtisaslı və peşəkar kadr təminatına əsaslı zəmin yaradacaq*

Muxtar respublikada təhsil davamlı inkişaf və tərəqqi yolundadır. Naxçıvan Muxtar Respublikası Ali Məclisi Sədrinin 2020-ci il 4 avqust tarixli Sərəncamı ilə yaradılan lisey muxtar respublikada kimya və biologiya fənləri üzrə şagirdlərin bilik və bacarıqlarının inkişaf etdirilməsinə



öz töhfəsini verəcəkdir. Naxçıvan şəhərində inşa olunan 4 mərtəbədən ibarət lisey binasında muxtəlif sinif otaqları, müasir avadanlıqlarla təchiz olunan kimya, biologiya və fizika laboratoriyaları, STEAM kabinəsi, şahmat otağı, kompüter otaqları, akt zalı və geniş idman zalı yerləşir. Binanın ayrı-ayrı korpuslarında oğlan və qızlar üçün 264 yerlik yataqxana və yeməkxana da inşa olunub.

Mayın 7-də Naxçıvan Muxtar Respublikası Təhsil Nazirliyi 2022-2023-cü tədris ili üzrə liseyə qəbul imtahanı keçirib. Bu təhsil ocağına VII-VIII sinifləri bitirən, hər sinifdən 30 qız, 30 oğlan olmaqla imtahanda ən yüksək nəticə göstərən 120 şagird qəbul olub. Qeyd edək ki, lisey 2022-2023-cü tədris ilindən etibarən müasir tədris vasitələrilə təmin olunaraq Naxçıvan Muxtar Respublikası Təhsil Nazirliyinin tabeliyində fəaliyyətə başlayacaq. Burada təhsil ümumi orta (8-9), tam orta (10-11) olmaqla iki səviyyədə həyata keçiriləcək. Tədris prosesi isə muxtar respublikanın ümumtəhsil məktəblərinin təcrübəli, eyni zamanda sertifikasiya nəticəsi yüksək olan müəllimləri tərəfindən aparılacaq. Liseydə şagirdlər təhsil dövründə dövlət hesabına 3 dəfə yeməklə və yataqxana ilə də təmin ediləcək. Naxçıvan Şəhər Kimya-Biologiya Təmayüllü Liseyinin yaradılmasında məqsəd muxtar respublikada kimya-biologiya fənləri üzrə şagirdlərin istedad və bacarıqlarını inkişaf etdirməklə yanaşı, bu sahədə ixtisaslı və peşəkar kadrlar hazırlamaqdır.

### *STEAM Təlim-Tədris Mərkəzində şagirdlər elmi araşdırmalar aparacaq, prototiplər yaradacaq, robot modelləri quracaq və onları məhsula çevirəcəklər*

Son illərdə dünya təhsil sistemində ən mühüm sahələrdən biri kimi aktuallıq qazanan STEAM təhsili müasir təhsil metodu kimi peşəkar səriştələrə malik mütəxəssis hazırlığında mühüm rol oynayır. STEAM təhsilinin hədəfi şagirdlərdə yüksək mütəşəkkil düşüncəni inkişaf etdirmək və əldə olunan bilikləri layihə təlimi vasitəsilə səmərəli tətbiqinə nail olmaqdır. Bu gün XXI əsr bacarıqlarına sahib gəncləri yetişdirməyin yolu STEAM təhsilindən keçir. Məhz bu amil nəzərə alınaraq Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri 2021-ci il 7 iyun tarixli "Naxçıvan Muxtar Respublikasında STEAM təhsil metodunun tətbiqi ilə bağlı tədbirlər haqqında" Sərəncamına əsasən muxtar respublikanın ümumtəhsil məktəblərində STEAM təhsil metodunun tətbiqinə başlanılıb. Bu tarixi dövlət sənədinin icrası məqsədilə Təhsil Nazirliyi qarşısında müəyyənləşdirilən vəzifələr uğurla həyata keçirilir. Bu günə kimi 106 təhsil müəssisəsində STEAM kabinəsi yaradılıb, onlar zəruri təlim avadanlığı və inventarlarla, eyni zamanda 212 kompüter, 106 3D printer və 106 elektron lövhə, mikrobit, arduino setləri, STEAM üçün öyrədici elektron komponentlərlə təmin edilib. Bunun nəticəsində də 22 mindən çox şagird STEAM təhsilinə cəlb olunub. Hazırda 4-cü layihə olaraq əlavə 50 ümumtəhsil məktəbində kabinələrin yaradılması istiqamətində işlər davam etdirilir.

Yeni tədris ilində Təhsil Nazirliyinin tabeliyində yaradılan STEAM Təlim-Tədris Mərkəzi də şagirdlərin ixtiyarına veriləcək. Mərkəzdə müasir dizaynda mühəndis emalatxanası, 3D printer, dron uçuş, elm, informatika, incəsənət və texnologiya, təlim, robotexnika otaqları və kitabxana olacaq. Burada xidməti otaqlar və layihələrin nümayişi üçün sərgi salonu da yaradılacaq. Mərkəz zəruri avadanlıqlarla, müxtəlif modellərdə və ölçülərdə 3D printer, CNC-lazer, tədris əsaslı robotlar və elektron komponentlər, emalatxana və tədris ləvazimatları, elektron lövhə və kompüterlə təmin olunacaq.

Təhsil Nazirliyinin Tədbirlər Planına əsasən ilk mərhələdə məktəblərdə təhsil alan istedadlı və bacarıqlı şagirdlərdən ibarət şagird bankı yaradılacaq. STEAM dərslərinin tədrisi üçün 2 illik dərs proqramları hazırlanacaq. Daha sonra proqrama uyğun olaraq şagirdlər həftənin 6 günü dərsdən sonra mərkəzə cəlb ediləcək. STEAM dərsləri 3D çap, microbit və arduino ilə proqramlaşdırma, elektrik mühəndisliyi, robotexnika, CNC lazer kəsiciləri, pilotsuz uçuş aparatları (tədris dronları) üçün hazırlanmış tədris proqramı üzrə təşkil olunacaq. Burada şagirdlər həm proqram əsasında, həm də öz ideyaları ilə texnoloji layihələr reallaşdıra biləcək, elmi araşdırmalar aparacaq, prototiplər yaradacaq, robot modelləri quracaq və onları məhsula çevirəcəklər. Tədris layihəsi ilkin olaraq 6 və 7-ci sinifləri əhatə edəcəkdir.

### *8 nömrəli uşaq bağçası-körpələr evində uşaqların təlim-tərbiyəsi üçün hərtərəfli şərait yaradılıb*

Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri 2021-ci il dekabrın 22-də "Naxçıvan Muxtar Respublikasında dövlət məktəbəqədər təhsil sistemində idarəetmənin təkmilləşdirilməsi haqqında" Sərəncam imzalayıb. Sərəncama əsasən yerli icra hakimiyyəti orqanlarının tabeliyində olan dövlət məktəbəqədər təhsil müəssisələri Naxçıvan Muxtar Respublikası Təhsil Nazirliyinin tabeliyinə verilib. Sərəncamın icrası məqsədilə nazirlikdə bu sahə ilə bağlı sektor yaradılıb. Təhsil müəssisələrinə iki mindən artıq dərs vəsaiti paylanılıb.



Məktəbəqədər təhsil müəssisələrində kadr potensialının formalaşdırılması üçün Naxçıvan Muxtar Respublikası Nazirlər Kabinetinin 2018-ci il 14 aprel tarixli Qərarı ilə təsdiq olunmuş "Naxçıvan Muxtar Respublikasında pedaqoji heyətin dövlət ümumi təhsil, məktəbəqədər təhsil və peşə təhsili müəssisələrinə işə qəbulu, bilik bacarıqlarının qiymətləndirilməsinin aparılması Qaydaları"na uyğun ilk dəfə olaraq müsabiqə keçirilib. Müsabiqəyə Naxçıvan şəhəri, Şərur, Babək, Ordubad, Culfa, Kəngərli və Sədərək rayonlarının məktəbəqədər təhsil müəssisələrindən 33 tərbiyəçi-müəllim, 9 musiqi rəhbəri və 1 tibb bacısı olmaqla, ümumilikdə, 43 vakant vəzifə çıxarılıb. Dövlət İmtahan Mərkəzi tərəfindən keçirilən imtahanlarda 27 nəfər müvafiq keçid balını toplayaraq işə qəbul olunub.

Qeyd edək ki, müstəqillik illərində muxtar respublikada fəaliyyət göstərən 20-yə yaxın məktəbəqədər təhsil müəssisəsi tikilərək və yaxud yenidən qurularaq uşaqların təlim-tərbiyəsi üçün hərtərəfli şərait yaradılıb. Bu tədbirlərin davamı olaraq Naxçıvan şəhərində 8 nömrəli uşaq bağçası da inşa olunub. Müasir üslubda inşa olunan 4 mərtəbədən ibarət uşaq bağçası 210 yerlikdir. Binada müxtəlif yaş qruplarından olan uşaqlar üçün tədris, yataq və soyunub-geyinmə otaqları, oyun zalları, yeməkxana, bufet, metodist və həkim otaqları, anbar və camaşırxana yerləşir. Bir sözlə, burada balaca fidanların təlim-tərbiyəsi üçün hərtərəfli şərait yaradılıb.

*Təhsil quruculuğu sahəsində görülən işlər muxtar respublikamızda təhsilin inkişafı və kadr hazırlığı işinin daim diqqətdə saxlanıldığını təsdiqləməklə yanaşı, iqtisadi potensialın insan kapitalına çevrilməsi müstəvisində yeni üfüqlər açır. Əminliklə deyə bilərik ki, Təhsil Nazirliyinin şəbəkəsinə qoşulacaq yeni tipli təhsil müəssisələri muxtar respublikada təhsilin inkişafına öz töhfəsini verəcək, ixtisaslı və peşəkar kadrların hazırlanmasında mühüm rol oynayacaqdır.*

**Naxçıvan Muxtar Respublikası Təhsil Nazirliyinin mətbuat xidməti**

Dövlət proqramı icra olunur

# Kənd təsərrüfatı məhsullarının istehsal, emal və ixrac potensialının gücləndirilməsi diqqət mərkəzindədir

*Naxçıvan Muxtar Respublikasında iqtisadiyyatın ayrılmaz tərkib hissəsi kimi kənd təsərrüfatının inkişafı istiqamətində görülən işlər bu sahədə uğurlu nəticələrin əldə edilməsinə səbəb olmuşdur. Aqrar sektorda fəaliyyət göstərən sahibkarların geniş maliyyə dəstəyi, təsərrüfat sahiblərinin texnoloji avadanlıqlarla təmin olunması, torpaqların münbitliyinin artırılması ilə əlaqədar kompleks tədbirlərin həyata keçirilməsi kənd təsərrüfatının dayanıqlı inkişafını təmin etmişdir. Bu tədbirlər muxtar respublikada ərzaq məhsullarına olan tələbatın yerli istehsal hesabına ödənilməsinə, eləcə də emal sənayesinin inkişafına və ixrac potensialının formalaşmasına gətirib çıxarmışdır. Qazanılan nailiyyətlərin davamlılığını təmin etmək məqsədilə Naxçıvan Muxtar Respublikası Ali Məclisi Sədrinin 2021-ci il 29 mart tarixli Sərəncamı ilə “2021-2025-ci illərdə Naxçıvan Muxtar Respublikasında kənd təsərrüfatı məhsullarının istehsalı, emalı və ixracının stimullaşdırılmasına dair Dövlət Proqramı” təsdiq olunmuşdur.*

Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyev demişdir: ***“Naxçıvan Muxtar Respublikası son 20 il ərzində iqtisadi artımın templərinə görə rekordsmen bölgədir. Ümumi daxili məhsul 10 dəfədən çox artıb. Kənd təsərrüfatı ilə bağlı görülmüş işlər nəticəsini verməkdədir... Yəni bütün bunlar inkişafın təzahürüdür”.***

Dövlət proqramının icrası cari ilin birinci yarısında da diqqətdə saxlanılmış, kənd təsərrüfatı məhsulları istehsalı üzrə 63 layihənin maliyyələşdirilməsinə, ümumilikdə, 1 milyon 96 min 800 manat həcmində dövlət maliyyə dəstəyi göstərilmişdir. Birinci yarım ildə 31 heyvandarlıq, 2 quşçuluq, 4 arıçılıq təsərrüfatının yaradılması, 13 heyvandarlıq, 3 arıçılıq təsərrüfatının genişləndirilməsi başa çatdırılmış, 11 heyvandarlıq, 1 quşçuluq, 4 arıçılıq təsərrüfatının yaradılması, 11 heyvandarlıq təsərrüfatının genişləndirilməsi, 1 heyvandarlıq kompleksinin və 1 quşçuluq təsərrüfatının yenidən qurulması davam etdirilmişdir. Bütövlükdə, kənd təsərrüfatına əsaslanan istehsal sahələrinin yaradılması istiqamətində 70 layihə üzrə işlər başa çatdırılmış, 41 layihə üzrə işlər davam etdirilmişdir. Yanvar-iyun aylarında muxtar respublikada 152 milyon 756 min 100 manat dəyərində kənd təsərrüfatı məhsulu istehsal olunmuşdur ki, bu da bir il öncəyə nisbətən 3,7 faiz çoxdur.





Dövlət proqramında yerli xammala əsaslanan yun tədarükü və iplik istehsalı müəssisəsinin yaradılması, eləcə də müasir texnologiyalar əsasında qurudulmuş və dondurulmuş meyvə-tərəvəz emalı müəssisələrinin qurulması və qarğıdalı yağı istehsalına başlanılması ilə bağlı tapşırıqlar nəzərdə tutulmuşdur. Ötən müddətdə Naxçıvan Muxtar Respublikası Ali Məclisi Sədrinin müvafiq Sərəncamına əsasən “Naxçıvan Xalça və İplik İstehsalı Müəssisəsi” Məhdud Məsuliyyətli Cəmiyyətinin yaradılması istiqamətində işlərə başlanılmış, yun iplik istehsalı sahəsinin qurulması üçün layihə hazırlanmışdır. Müvafiq şirkətlə bağlanmış müqavilə əsasında bu istehsal sahəsində istifadə olunacaq avadanlıqların həmin şirkət tərəfindən hazırlanması birinci yarım ildə başa çatdırılmışdır. Hazırda müəssisənin yerləşəcəyi ərazidə tikinti-quraşdırma işləri davam etdirilməkdədir. Bununla yanaşı, cari ilin ilk yarısında Şərur Sənaye Məhəlləsində bitki yağı istehsalı, eyni zamanda süd məhsullarının emalı və qablaşdırılması, meyvə-tərəvəz məhsullarının konservləşdirilməsi və qurudulması sahələrinin yaradılması da davam etdirilmişdir. Görülən işlər sənaye məhəlləsinin muxtar respublikada sənaye ilə yanaşı, bir çox iqtisadi sahələrin, o cümlədən kənd təsərrüfatının davamlı inkişafına təkan verəcəyini deməyə əsas verir.

Bu sahədə xüsusi diqqət yetirilən məsələlərdən biri məhsul istehsalının genişləndirilməsi ilə tələbatın yerli imkanlar hesabına ödənilməsidirsə, digər məsələ də istehsal olunan məhsulların satış və ixrac imkanlarının artırılmasıdır. Təsərrüfat sahiblərinin öz məhsullarını keyfiyyətli şəkildə alıcıya təqdim etməsi və həmin məhsulların satışından gəlir götürməsi onların öz fəaliyyətlərini genişləndirmələri üçün stimullaşdırıcı xarakter daşıyır. Dövlət proqramında müəyyənləşdirilən tapşırıqlardan biri də xidmət sahələri ilə ailə təsərrüfatları arasında əlaqələrin gücləndirilməsidir. Bu istiqamətdə cari ilin ilk yarısında İqtisadiyyat Nazirliyi tərəfindən muxtar respublikada fəaliyyət göstərən 370 ticarət obyektində ailə təsərrüfatlarının təqdim etdiyi məhsullardan ibarət bölmələrin yerləşdirilməsi və istehlakçılara təklif edilməsi ilə bağlı maarifləndirmə işi aparılmışdır. Bundan əlavə, birinci yarım ildə Bakı şəhərinə və xarici ölkələrə 1 tona yaxın soğan, 180 tondan çox kartof və 490 tondan çox qarğıdalı məhsulunun göndərilməsi təmin edilmişdir.

Kənd təsərrüfatı məhsullarının satış qabiliyyətini xarakterizə edən ən mühüm amillərdən biri də onların keyfiyyətidir. Proqramın icrasına uyğun olaraq cari ilin ilk yarısında emal olunmuş kənd təsərrüfatı məhsullarının keyfiyyəti nəzarətdə saxlanılmışdır. Bu dövrdə Antiinhisar və İstehlak Bazarına Nəzarət Dövlət Xidməti tərəfindən muxtar respublikada emal olunmuş kənd təsərrüfatı məhsullarının 115 halda keyfiyyət göstəriciləri üzrə laboratoriya analizləri aparılmış, nəticələrin texniki normativ-hüquqi aktların və standartların tələblərinə uyğunluğu müəyyən olunmuşdur.



Dövlət proqramında nəzərdə tutulan tapşırığın icrası məqsədilə əkin üçün əlverişli torpaqların xəritələşdirilməsi istiqamətində də tədbirlər davam etdirilmişdir. Belə ki, birinci yarım ildə Daşınmaz Əmlak və Torpaq Məsələləri üzrə Dövlət Xidməti tərəfindən Babək və Sədərək rayonlarının sərhədləri daxilində əkin dövriyyəsindən kənarda qalmış torpaqların xəritələri hazırlanaraq Kənd Təsərrüfatı Nazirliyi və müvafiq yerli icra hakimiyyəti orqanlarına təqdim olunmuşdur. Görülən işlər kənd təsərrüfatına yararlı torpaqların əkin dövriyyəsinə cəlb olunması baxımından mühüm əhəmiyyət kəsb etmişdir.

Muxtar respublikada kənd təsərrüfatı məhsullarının istehsalı sahəsində ailə təsərrüfatlarının rolu mühüm əhəmiyyət kəsb etdiyindən bu təsərrüfatların fəaliyyətinin stimullaşdırılması xüsusi diqqətdə saxlanılır. Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri cənab Vasif Talıbovun dediyi kimi: ***“Sahibkarlığın inkişafının bir yolu da ailə təsərrüfatlarının fəaliyyətini dəstəkləməkdən keçir. Çünki ailə təsərrüfatları həm yerli istehsalın həcminin artmasına və özünüməşğulluğun təmin olunmasına, həm də kiçik və orta sahibkarlığın inkişafına böyük təkan verir”.*** Göstərilən dövlət maliyyə dəstəyi ilə yanaşı, həyata keçirilən maarifləndirmə işləri aqrar yönümlü mövcud ailə təsərrüfatlarının öz fəaliyyətini genişləndirməsinə, özünüməşğulluq proqramının reallaşdırılması isə yeni təsərrüfatların yaranmasına səbəb olur. Cari ilin birinci yarısında Dövlət proqramının icrasına uyğun olaraq təsərrüfat sahiblərinin maarifləndirilməsi məqsədilə 29 seminar-müşavirə keçirilmiş, kənd təsərrüfatının müxtəlif sahələri ilə bağlı 7 adda 70 nüsxə buklet hazırlanaraq paylanmışdır. Həmçinin bu dövrdə özünüməşğulluq proqramına cəlb olunan və kənd təsərrüfatı yönümlü fəaliyyət göstərən ailələrə, ümumilikdə, 176 baş iribuynuzlu, 860 baş xırdabuynuzlu heyvan, 120 yeşik arı ailəsi, 19 miniyerşumlayan, 6 otbiçən, 1 südsağan aqreqat, 4 inkubator və quş tükü təmizləyən aparat və 2 su motoru verilmişdir.

Dövlət proqramının icrası çərçivəsində həyata keçirilən tədbirlər muxtar respublikada kənd təsərrüfatının davamlı inkişafını təmin etməkdədir.

**“Şərq qapısı”**

Ailə təsərrüfatlarımız

# Yaradılan şəraitin, birgə fəaliyyətin nəticəsi



Ümummilli liderimiz Heydər Əliyevin ***“Azərbaycanın incisi”*** adlandırdığı, yaşı yüzilliklərin bağrını dələn çinarların çətir tutduğu bağlar diyarı Ordubadda da son illərdə kənd təsərrüfatının müxtəlif sahələri inkişaf edib, onlarla yeni ailə təsərrüfatları qurulub, sahibkarlıq subyektləri formalaşıb. Aqrar sahədə illərdir, yetişdirdiyi keyfiyyətli məhsullarla öz sözünü deyən təsərrüfat sahiblərindən biri də Dəstə kənd sakini ***Mehdi Quliyev***dir. Yaşı 65-ə yaxın olan Mehdi kişi ömrünün 25 ilini əkin-biçin işlərinə həsr edib. Əsas məşğuliyyət sahəsi ərzaq təhlükəsizliyi baxımından strateji əhəmiyyəti ilə seçilən taxılçılıqdır. O bu barədə fikirlərini bizimlə bölüşdü:

– Doğru deyirlər ki, həyatda təsadüf yoxdur, olacaqları yaşayırıq. İllər öncə taxılçılığı əsas məşğuliyyət növü kimi seçməyim də əbəs yerə deyil. Siz gənc nəsillər xoşbəxtsiniz ki, ömrünüz müstəqillik illərinə, bolluq dövrünə düşüb, amma biz vaxtilə çox əziyyətlərə qatlaşmışıq. Su, qaz, elektrik enerjisi bir yana qalsın, çörəklə də imtahan edilmişik. Bir parça çörəyi 5-6 nəfər arasında bölüb qənaətlə yediyimiz günlər çox olub. Elə o illərin acı xatirələri məni taxılçılıq sahəsinə yönəltdi. Ümummilli liderimiz Heydər Əliyevin Azərbaycanda ikinci dəfə hakimiyyətə qayıdışından sonra bütün sahələrdə durğunluq proseslərinə son qoyuldu, torpaqların öz sahiblərinə verilməsi prosesi uğurla həyata keçirildi. Torpaq islahatı illərlə həyətyanı sahəsində əkin aparan digər həmkəndlilərim kimi, mənim də öz təsərrüfatımı yaratmağa geniş imkanlar açdı. Beləcə, 1994-1995-ci illərdən üzübəri əkin-biçin işlərinə başladım. O zamanla indiki dövr arasında şərait, imkanlar baxımından müqayisəyəgəlməz, çox böyük dəyişikliklər vardır. Bir vaxtlar nasaz traktorların, kombaynların ucbatından həftələrlə məhsulumuz yerdə qalar, itkiyə gedərdi. Digər tərəfdən suvarma suyu, keyfiyyətli toxum sarıdan da çox əziyyətlər çəkərdik. Ancaq bu gün vəziyyət tamamilə başqadır, indi nəinki bu sadaladığım xoşagəlməz hallar aradan qaldırılıb, dövlətimiz hər bir zəhmətkeşin fəaliyyətinə dəstək göstərir, pulsuz gübrə və hər hektara görə subsidiyalar verilir. Başqa sözlə, torpağın şumlanmasından başlayaraq yetişdirilən məhsulun daşınmasına qədər bütün proseslərdə dövlət kəndliyə yaxından dəstək olur ki, bu da, son nəticədə, böyük uğurlar qazanılmasını şərtləndirir.

Həyat yoldaşı, övladları və gəlinləri ilə birgə böyük əzmlə, iradə ilə çalışan Mehdi Quliyev məhsuldarlığın yüksək olmasından da ürəkdolusu danışaraq bildirdi ki, ötən il 8-i buğda, 7-si arpa olmaqla, ümumilikdə, 15 hektardan 38 ton məhsul əldə edib. Məhsuldarlıq hər hektara 25 sentner düşüb. 2022-ci ilin məhsulu üçün ötən ilin payızında 19 hektarda arpa əkini həyata keçirib, məhsuldarlıq hər hektara 25 sentner olmaqla, ümumilikdə, 47,5 ton məhsul tədarük edib. Təsərrüfatçının cari mövsümdə taxılçılıqda buğdaya deyil, arpaya üstünlük verməsi də əbəs yerə deyil. Çünki həyətində iki baş iribuynuzlu və 10 baş xırdabuynuzlu heyvan bəsləyir ki, onlar üçün qüvvəli və qaba yem ehtiyatının əldə edilməsi vacibdir. Həyətyanı sahəsində müxtəlif meyvə sortları, eləcə də mövsümi tərəvəz məhsulları da yetişdirərək bazara çıxarıb sərfəli qiymətə satır. Vənənd və Araz çayları hesabına suvarma suyu qıtlığı çəkmədiyini minnətdarlıq hissi ilə ifadə edən təsərrüfatçı gələcəkdə daha böyük uğurlara imza atmaq, bölgənin iqtisadiyyatına töhfə vermək üçün səylə çalışacağını vurğuladı.

**Nail ƏSGƏROV**

# Sədərəkdə sahələrdən bol kartof yığılır

Sədərək rayonunda aqrar sahənin inkişafına göstərilən diqqət və qayğı sakinlərdə bir sıra kənd təsərrüfatı məhsullarının yetişdirilməsinə marağı xeyli artırıb. Kartofçuluq da son illərdə inkişaf edən əkinçilik sahələrindən biridir. Ötən il rayonun ailə təsərrüfatçıları 118 hektar sahədə məhsul yetişdirib, 1400 ton kartof əldə ediblər. Ailə təsərrüfatçıları bu ilin bol məhsulu üçün də lazımi hazırlıq işləri görüb, mart ayından etibarən sahələrdə kartof əkinlərinə başlayıblar. Belə ki, 119 hektar sahədə kartof əkilib. Vegetasiya becərmələri aqrotexniki qaydalar əsasında həyata keçirildiyindən sahələrdə bol məhsul yetişib.



Məlumat üçün bildirək ki, rayonda 32 ailə təsərrüfatı fəaliyyət göstərir. Onlar əkinçiliyin müxtəlif sahələri ilə məşğul olur, yerli kənd təsərrüfatı məhsullarının istehsalına töhfələr verirlər. Qaraağac kənd sakini, təcrübəli təsərrüfatçı Vəzir İmamverdiyev də onlardan biridir. Bu il kartof əkini sahələrini 11 hektara çatdıran təsərrüfatçı hələ ötən ilin payızında sahələri üzvi və mineral gübrələrlə münbitləşdirib, keyfiyyətli şum aparıb. Həm əkin, həm də vegetasiya becərmələri müasir texnikaların qüvvəsilə həyata keçirilib, nəticədə, kartof əkini sahələrində bol məhsul hasilə gətirilib. İndiyə kimi 400 tondan artıq kartof yığılaraq bazar və yarmarkalara çıxarılıb. Təsərrüfatçının əkin sahələrindən toplanan kartofdan milli ordumuzun əsgərlərinə sovqat da göndərilib.

Qeyd edək ki, rayonun iri yaşayış məntəqələri olan Dəmirçi və Sədərək kəndlərində də kartof yığımı mütəşəkkil həyata keçirilir. Ailə təsərrüfatçıları məhsul yığımı ilə yanaşı, sahələrdə yay şumu qaldırılmasına və təkrar əkinlər keçirilməsinə də diqqət yetirirlər. İndiyədək 150 hektara yaxın sahədə şum qaldırılaraq payızlıq tərəvəz bitkilərinin əkininə başlanılıb.

**Xəbərlər şöbəsi**

*Bu gün artıq muxtar diyarımızın bütün sahələrində atılan mütərəqqi addımlar təhsil infrastrukturunun da günün tələbləri səviyyəsində qurulmasına geniş imkan yaradır. Bunu hər tədris ilinin sonunda keçirilən qəbul imtahanlarının uğurlu nəticələrində bir daha görürük. Qeyd edək ki, artıq muxtar respublikamızda bir çox tədris müəssisələrini müvəffəqiyyətlə başa vuran, ən yüksək nəticə göstərən abituriyentlərimizlə oxucularımızı tanış etmişik. Bu dəfə isə Sədərək rayonu üzrə yüksək nəticə toplayan, artıq tələbə adını qazanmış gənclərimizin söhbətini təqdim edirik:*

*Gəncliyimiz, gələcəyimiz*

## Təhsildə gənclərimizin qazandığı hər bir uğur Vətənimizin nurlu sabahı, işıqlı gələcəyidir

Sədərək kənd 1 nömrəli tam orta məktəbin məzunu ***Nicat Əlizadə*** birinci ixtisas qrupu üzrə 614 bal toplayıb. Müsahibimiz qazandığı nailiyyətlərin sirrindən söhbət açaraq dedi: – Bu gün doğma Naxçıvanımızda gənclərin hərtərəfli formalaşması üçün hər bir şərait yaradılıb. Sözsüz ki, qədim diyarımızda həyata keçirilən islahatlar, icra olunan uğurlu layihələr təhsildən də yan ötmür. Yaşadığım Sədərək rayonunda da təhsil üçün yaradılan müasir şərait təqdirələyiqdir. Savadlı müəllimlərimiz, hər cür avadanlıqlarla təchiz olunmuş məktəbimiz, işıqlı sinif otaqlarımız bizim gələcəkdə savadlı kadr kimi yetişməyimizdə mühüm rol oynayır. Bizə qalan öhdəlik isə bu qayğıdan layiqincə istifadə edərək oxumaq, Vətənə layiqli şəxsiyyət olmaqdır. Çox şadam ki, bu ilin uğurlu məzunları arasında mənim də adım var və çəkdiyim zəhmət öz bəhrəsini verib. Topladığım nəticəyə əsasən Bakı Mühəndislik Universitetinin Elektronika mühəndisliyi ixtisasına qəbul olmuşam. Məqsədim gələcəkdə bu sahədə geniş biliklərə yiyələnməkdir. Çünki müasirləşən dünyamızda informasiya texnologiyalarının sürətlə dəyişməsi, media əsrinin dinamik inkişafı, təbii olaraq, bu sahədə savadlı kadrlara da ehtiyac yaradır. Bu yolda irəliləyən, əzmlə çalışan bütün şagirdlərə uğurlar arzulayır və heç zaman məqsədlərindən daşınmamalarını tövsiyə edirəm.



***Əsəd Əlirzayev*** Sədərək kənd 2 nömrəli tam orta məktəbin məzunudur. O, birinci ixtisas qrupu üzrə 588 bal toplayıb. Azərbaycan Dövlət Gömrük Akademiyasının İnformasiya təhlükəsizliyi ixtisasının tələbəsi adını daşıyır. O dedi:



– Həyatda daim cidd-cəhdlə çalışmaq, zəhmət çəkmək, düşünürəm ki, insanı insan edən əsas meyardır. Oxumaq və elm öyrənmək isə bu yola işıq tutan mayaka bənzəyir, daim yolumuza nur çiləyir. Təsadüfi deyil ki, müqəddəs kitabımız "Qurani-Kərim"in də ilk əmri "oxu" ilə başlayır. Tarixin səhifələrini vərəqləsək, görərik ki, hansı məmləkətdə savada, biliyə, təhsilə dəyər verilibsə, o məmləkət günü-gündən gülüstana çevrilib, gözəlləşib. Çox şadıq ki, Azərbaycan kimi bir ölkənin gənciyik. Çünki bu gün ölkəmiz bütün istiqamətlərdə, ən əsası isə gənclərin sağlam ruhda formalaşması yolunda dövlətimiz daim çalışır, səy göstərir. Bunun nəticəsidir ki, elm yolunu tutan biz gənclər də bu etimada layiq olmağa çalışır, yüksək nəticələr qazanırıq. Muxtar respublikamızda yüksək nəticə göstərən gənc kimi, bundan sonra da çalışacağam ki, tələbəlik illərimdə bu nailiyyətlərim davamlı olsun, ailəmin, müəllimlərimin sevincinə səbəb olum. Mənim üçün o gənc həyatda əsl xoşbəxtliyi qazanır ki, ailəsi, yoldaşları, Vətəni onunla öyünsün, fəxr etsin.

Növbəti müsahibimiz üçüncü ixtisas qrupu üzrə 566 bal toplayan Sədərək kənd 1 nömrəli tam orta məktəbin məzunu ***Aynur Qədimova*** deyir ki, gələcəkdə hansı peşəyə yiyələnməkdən asılı olmayaraq, o zaman uğur qazana bilərsən ki, tutduğun yolun məsuliyyətini dərinliyi ilə dərk edəsən. Böyük şairimiz Nizami Gəncəvinin dediyi kimi: "Kamil bir palançı olsa da insan, yaxşıdır yarımçıq papaqçılıqdan". İnkaredilməz həqiqətdir ki, gənclik illəri insan həyatının ən qaynar, maraqlı dövrüdür. Tələbə olmaq isə bu dövrün ən qiymətli nemətidir.



Onu da deyim ki, bəzi valideynlər xaricdə təhsil almağı karyera baxımından daha effektiv hesab edirlər. Düzdür, gənclərimizin dünyaya inteqrasiya etməsinin faydaları çoxdur, lakin bu o demək deyil ki, Vətənimizdə təhsil müəssisələri kifayət qədər bilik aşılaya bilmir. Mən Bakı Dövlət Universitetinin Hüquqşünaslıq ixtisasına qəbul olmuşam. İnanıram ki, ixtisasımı yüksək səviyyədə mənimsəyib gələcəkdə savadlı mütəxəssis kimi formalaşacağam.

***Selma Hüseynova*** da rayon üzrə yüksək nəticə göstərən gənclər arasındadır. Üçüncü ixtisas qrupu üzrə 556 bal toplayaraq Bakı Dövlət Universitetinin Dövlət və ictimai münasibətlər ixtisasına qəbul olan müsahibim deyir ki, yüksək nəticə əldə etməkdə şagird, müəllim, valideyn faktorları çox önəmlidir. İmtahana səmərəli hazırlaşmaq üçün, məncə, abituriyent özünə uyğun, sistemli bir dərs planı hazırlamalıdır. Bu plan dərslərin təkrarını, yeni dərsin öyrənilməsini, səhvlər üzərində işləməyi əhatə etməlidir. Vaxtın düzgün idarə olunması da çox önəmlidir. Çünki motivasiya qalıcı deyil, dərs oxumaq üçün həvəs həmişə olmur. Bəzən elə nüanslarla rastlaşırsan ki, onlara "yox" demək qərarına gəlirsən, dərsi seçməli olursan. Ən çətini o "yox"u deməyi bacarmaqdır. Hədəfə çatandan sonra arxaya baxdıqda düzgün addım atdığını görürsən. Amma bu o demək deyil ki, məktəb illərini yalnız dərslə keçirmək lazımdır. Xeyr, mən istirahətimə və əyləncəmə də, digər məşğuliyyətlərə də vaxt ayırmışam. Dərslərimlə bərabər, əlavə fəaliyyətlərlə məşğul olmağım zamanı düzgün bölə bilməyimin nəticəsidir.



Üçüncü ixtisas qrupu üzrə 519 bal toplayan ***Aytən Ələkbərli*** artıq Azərbaycan Pedaqoji Universitetinin İngilis dili ixtisası üzrə tələbəsidir. Deyir ki, mənim üçün ən böyük uğur valideynlərimin, müəllimlərimin sevgisini qazanmaq, onların çəkdiyi zəhmətin bəhrəsini ən gözəl şəkildə verməkdir. Yüksək nəticə qazanmaq nə qədər fərəhlidirsə, insan üçün bu son hədəf olmamalıdır. Çünki insan daha böyük, ali məqsədlər üçün yaradılıb. Vətəninə yetərincə xidmət göstərmək, ona layiqli şəxsiyyət olmaq bu yolda bizim qazanacağımız ali hədəflər sırasındadır. Yüksək bal toplamaq isə bu yola çıxanların əldə edəcəyi bir nailiyyətdir. Şadam ki, mən də rayonumuzun üzünü ağ edən gənclərimiz sırasındayam, xoşbəxtəm, sevincliyəm. Düşmənlə üz-üzə dayanmağımız isə sanki bizə daha da böyük ruh yüksəkliyi verir, onları hər cəhətdən məğlub etmək üçün səylə çalışırıq. Qəhrəman qardaşlarımızın səngərdəki qələbələri, biz gənclərin isə qazandığı uğurlar düşmənə gözdağıdır. Arzu edirəm ki, bu xoşbəxtlik bütün şagirdlərə nəsib olsun. Onlar da ailələrinin qürur mənbəyinə çevrilsinlər.



*Müdrik bir el məsəlində deyilir ki, qəlbi elm, mübarizə və insana məhəbbət uğrunda çırpınmayan adamlar nahaq yerə anadan olurlar. Belə adamlar nahaq yerə valideynlərinin cavanlığını əlindən alırlar. Bəli, insanın yaradılış hədəfini ən incə nüanslarına qədər açıqlayan bu hikmətli fikir onu da təsdiqləyir ki, cəmiyyətə faydalı olmaq, keyfiyyətli və faydalı ömür sürmək üçün mütləq həyatda elmə, dərin biliyə yiyələnməlisən. Elə bu yazımızda bəhs etdiyimiz, tələbə olma sevincini ilk bölüşdüyümüz gənclərimiz kimi.*

**✍ Məcid RƏŞADƏTOĞLU**

## Gənclərin yay motivasiya düşərgəsi

***Muxtar respublikamızda yaşayıb-yaradan, təhsil alan, həyatın müxtəlif sahələrində fəaliyyət göstərən gənclərin asudə vaxtının səmərəli təşkili illərdir ki, xüsusi önəm verilən sahələrdən birinə çevrilib. Bu həm də qədim diyarımızda dövlət gənclər siyasətinin uğurla həyata keçirilməsi deməkdir. Reallaşdırılan belə tədbirlər həm də onların dünyagörüşünün zənginləşdirilməsində, dövlətçiliyimizə, müstəqilliyimizə bağlılıq hisslərinin gücləndirilməsində mühüm əhəmiyyətə malikdir.***

Qeyd edək ki, son illərdə Ağbulaq İstirahət Mərkəzinə gənclərin ekskursiyaları, burada mədəni istirahətin yüksək səviyyədə təşkili davamlı xarakter alıb. Bu baxımdan 29-31 avqust tarixlərdə təşkil olunmuş tədbir də yaddaqalan olub. Yeni Azərbaycan Partiyası Naxçıvan Muxtar Respublika Təşkilatı Gənclər Birliyi tərəfindən reallaşdırılmış "Gəncliyimiz gələcəyimiz" adlı muxtar respublikamızın kəndlərində yaşayan gənclərin yay motivasiya düşərgəsi gənclərə davamlı qayğının növbəti təzahürü kimi iştirakçılar tərəfindən yüksək dəyərləndirilib.

Avqust ayının 29-da gənclər üçün motivasiya xarakterli təlim, interaktiv və hərəki oyunlar keçirilib. Həmçinin Azərbaycan Respublikası Milli Məclisinin deputatı, Naxçıvan Muxtar Respublikası Gənclər Fondunun icraçı direktoru Cəbi Quliyevin gənclərlə görüşü və panel müzakirəsi təşkil olunub. Düşərgə proqramına



uyğun olaraq axşam saatlarında gənclər üçün açılış tədbiri də baş tutub.

Düşərgədə səhər gimnastikası, təbiət gəzintisi, komanda oyunları, futbol, "Labirint" strateji intellekt oyunu üzrə yarış, film nümayişi, "Xəmsə" milli intellektual oyunu, motivasiya görüşü, poeziya saatı təşkil edilib.

Düşərgənin ikinci günü muxtar respublikada yaşayıb-yaradan şair, yazıçı və jurnalistlərlə görüş olub.

Naxçıvan Muxtar Respublikası Yazıçılar Birliyinin sədri, Naxçıvan Muxtar Respublikası Ali Məclisinin deputatı, Azərbaycan Respublikasının Əməkdar mədəniyyət işçisi, şair Asim Yadigar qədim diyarımızda yaradıcı gənclərə göstərilən qayğıdan, bu istiqamətdə görülən işlərdən danışıb.

Sonra söz digər şair və yazıçılara verilib. Həsənalı Eyvazlı, Elxan Yurdoğlu, Hüseyn Əsgərov, Alməmməd Eldaroğlu, Qanun Ümman öz şeir və hekayələrini gənclərə təqdim ediblər. Naxçıvanlı şair və yazıçılarımızın milli-mənəvi dəyərlərdən bəhs edən, hərbi-vətənpərvərlik mövzusunda yazılmış, xüsusilə də Vətən müharibəsinə, Tarixi Zəfərə və şəhidlərimizə həsr olunmuş bədii əsərləri gənclər tərəfindən maraqla qarşılanıb. Tədbirdə iştirakçıların sualları cavablandırılıb, yaradıcılıqla məşğul olan gənclərin şeirləri dinlənilib. "Şərq qapısı" qəzetinin məsul katibi, Naxçıvan Muxtar Respublikasının Əməkdar jurnalisti Muxtar Məmmədov gənclərə səmərəli istirahət arzulayıb, onlara muxtar respublikamızın və ölkəmizin inkişafındakı fəal iştiraklarına görə təşəkkür edib.

Düşərgənin üçüncü günü gənclərlə Naxçıvan Muxtar Respublikası mədəniyyət nazirinin müavini, Gənclər Birliyinin üzvü Həsən Kərimovun görüşü təşkil olunub.

Qeyd edək ki, yay motivasiya düşərgəsi dünən başa çatıb. Düşərgənin sonunda fərqlənən gənclərə fəxri fərman təqdim olunub.

## Naxçıvanda ilk dəfə Musiqi Kollecinə işə qəbul imtahanları keçirilib

*Naxçıvan Dövlət Universitetinin Musiqi Kollecinin ixtisaslı kadrlarla komplektləşdirilməsi məqsədilə Naxçıvan Muxtar Respublikası Nazirlər Kabinetinin "Naxçıvan Musiqi Kollecinə müəllimlərin işə qəbulu Qaydaları"nın təsdiq edilməsi haqqında 6 iyul 2021-ci il tarixli Qərarına uyğun olaraq müsabiqə keçirilir.*

30 vakant vəzifənin çıxarıldığı müsabiqədə müvafiq vəzifələrin tutulması üçün 29 namizəd müraciət edib. Test üsulu ilə keçirilən imtahanda hər bir namizədə, ümumilikdə, 80 olmaqla ixtisas üzrə 70, informasiya və kommunikasiya texnologiyalarına aid 10 test tapşırığı təqdim edilir və test tapşırıqlarının yerinə yetirilməsi üçün 120 dəqiqə vaxt verilir. Test imtahanında ən azı 48 bal toplamış namizədlər bu mərhələdən keçmiş sayılırlar.

Müvafiq müəllim vəzifəsinin tutulması üçün nəzərdə tutulan təhsil tələbi üzrə elmi dərəcəsi olan şəxslər həmin vəzifə üzrə işə qəbul olunarkən müsabiqənin yalnız müsahibə mərhələsində, kitabxanaçı vəzifəsini tutmaq istəyən namizədlər isə yalnız test imtahanı mərhələsində iştirak edirlər.

Test imtahanı mərhələsi başa çatdıqdan sonra 1 ay müddətində həmin vakant vəzifənin tutulması üçün müsahibə mərhələsi keçiriləcək. Müsahibənin təşkili üçün mərkəzin 1 nümayəndəsi, 1 müstəqil ekspert və universitetin 1 nümayəndəsi olmaqla 3 nəfərdən ibarət müsahibə komissiyası yaradılır.

Müsahibə namizədin vakant vəzifəyə uyğunluğunu müəyyən etmək üçün müsahibə komissiyasının ona suallar, tapşırıqlar verməsi və namizədin həmin sualları cavablandırması, tapşırıqları yerinə yetirməsi, habelə namizədin dinlənilməsi, müsahibə komissiyası üzvlərinin müşahidə aparması və qısa izahlar verməsi yolu ilə həyata keçirilir.

Test imtahanının nəticələri haqqında məlumat dərhal mərkəzin internet portalında yerləşdirilir və namizədlərə test imtahanının nəticəsi haqqında arayış verilir.

Qeyd edək ki, imtahan nəticələrinə əsasən test mərhələsində iştirak edən 28 namizəddən 13-ü müvafiq keçid balını toplayaraq müsahibə mərhələsində iştirak etmək hüququ qazanıb.

***Naxçıvan Muxtar Respublikası Dövlət İmtahan Mərkəzinin mətbuat xidməti***

## Yol təsərrüfatı və nəqliyyatın inkişafı sahəsində nəzərdə tutulan tədbirlər uğurla reallaşdırılır



Naxçıvan Muxtar Respublikasında əhalinin sosial rifahının yaxşılaşdırılması və iqtisadi sahədə əldə edilən nailiyyətlərin əsasında dayanan mühüm faktorlardan biri də Naxçıvan Muxtar Respublikası Ali Məclisi Sədrinin 2019-cu il 29 mart tarixli Fərmanı ilə təsdiq olunmuş "Naxçıvan Muxtar Respublikasının 2019-2023-cü illərdə sosial-iqtisadi inkişafı Dövlət Proqramı"nın uğurla icra edilməsidir. Dövlət proqramında yol təsərrüfatı və nəqliyyatın inkişafı sahəsində nəzərdə tutulan tədbirlərin reallaşdırılması da sosial-iqtisadi inkişafa təkan verən amillərdəndir.

Nəqliyyat sosial-iqtisadi təhlükəsizliyin əsas təminatlarından biri hesab olunur. Bu sahədə müasir infrastrukturun və intensiv hərəkətə malik nəqliyyat vasitələrinin mövcudluğu bir tərəfdən istehsal məhsullarının alıcıya vaxtında çatdırılmasına, digər tərəfdən fəaliyyətin səmərəli təşkilinə imkan verir. Cari ildə Naxçıvan Muxtar Respublikası Ali Məclisi Sədrinin iştirakı ilə Dövlət Nəqliyyat Xidmətinə 6 yeni elektrobus, Naxçıvan Beynəlxalq Hava Limanına teleskopik trap və maşın-mexanizmlər təqdim edilib. Təkcə cari ilin ilk altı ayı ərzində Avtomobil Yolları Dövlət Agentliyi tərəfindən, ümumilikdə, 16 kilometr uzunluğunda avtomobil yollarının yenidən qurulması başa çatdırılıb. Xanlıqlar-Şərur şəhəri-Yengicə-Şəhriyar-Kürçülü-Kərimbəyli-Dəmirçi kənd avtomobil yolunun tikintisi davam etdirilib. "Naxçıvan Dəmir Yolları" Məhdud Məsuliyyətli Cəmiyyəti tərəfindən yararsız vəziyyətdə olan 1198 ağac şpal yeni şpallarla əvəz edilib, Culfa Lokomotiv Deposunda lokomotivlər 19 dəfə texniki baxışdan keçirilib, Culfa İstismar Vaqon Deposunda 27 vaqon təmir olunub.

**Xəbərlər şöbəsi**

*Sağlam bədənin sağlam ruh üçün şərt olması haqqında çox eşitmişik. Lakin nədənsə sağlam ruhun da, öz növbəsində, bədən sağlamlığı üçün vacib olması fikrinə əhəmiyyət vermirik. Halbuki bu tezis fəlsəfi fikir tarixində qədim köklərə malikdir. "Mən belə hesab etmirəm ki, insanın fiziologiyasının sağlam olması onda könül xoşluğu yaradır, məncə, əksinə, könül xoşluğu fizioloji sağlamlığı üçün əsas şərtdir". Qədim yunan filosofu Platonun bu fikrinə əsaslanaraq deyə bilərik ki, cəmiyyətin ümumi sağlamlığı psixoloji sağlamlıqla sıx əlaqəlidir. Lakin qarşılaşdığımız situasiyalardan belə qənaətə gəlmək olar ki, nədənsə insanlar fiziki sağlamlıqları ilə bağlı həkimlərə tez-tez üz tutduqları halda psixoloqlara müraciət etməkdən çəkinirlər. Bəs buna səbəb nədir?*

# Psixiatr, psixoloq, yoxsa nevropatoloq?

## Sağlam ruh üçün hansına müraciət etmək lazımdır?

Sual doğuran məqamlardan biri də çoxlarının psixiatr, psixoloq və nevropatoloqun fərqini bilməməsidir. İnsan psixoloji narahatlıq yaşadıqda və bununla bağlı mütəxəssisdən yardım almaq qərarına gəldikdə kimə müraciət etməlidir? Psixiatra, psixoloqa, yoxsa nevropatoloqa? Suallarımıza cavab tapmaq üçün üz tutduq bu işin mütəxəssislərinə.

Psixoloq ***Çapay Quliyev***in sözlərinə görə, insan psixologiyası və fiziologiyası bir-biri ilə vəhdətdədir. Əgər psixologiyada problem varsa, mütləq fiziologiyaya da təsir edəcək. Ya da tam əksinə. Psixoloji sağlamlıq üçün öncə fizioloji baxımdan sağlam olmaq lazımdır. İkinci bir tərəfdənsə sağlam psixologiya üçün sağlam mühit şərtdir. Əgər ətrafımızda psixologiyamıza mənfi təsir edən amillər varsa, təbii ki, bu ruh düşkünlüyünə, psixoloji gərginliyə səbəb olacaq.

Psixoloq onu da əlavə etdi ki, ruh sağlamlığı olan insanlarda özünəgüvən, səbəbsiz qayğı və qorxulara sahib olmama, yaxın və uzaq insanlarla sağlam ünsiyyət qurma, müsbət qərarlar verməyi bacarma, çətinlikləri qorxmadan həlletmə kimi müsbət hərəkətlər dərhal gözə çarpır. Ruh sağlamlığının pozulması isə insanın duyğu və fikirlərinin qarışmasına, ətrafdakı insanlarla problem yaranmasına, fiziki narahatlıqların ortaya çıxmasına, mövcud narahatlıqların daha da artmasına səbəb olur ki, bu hallar da gündəlik yaşam üçün bir sıra problemlər yaradır. Daim neqativ düşünən insanlar ətraf mühitdən təcrid olunmağa başlayır, bir müddət sonra depressiyaya sürüklənir və vəziyyət o həddə çatır ki, normal yaşamaq üçün psixoloq müdaxiləsi vacib olur.

Çapay Quliyev onu da qeyd etdi ki, ruhu sağlam saxlamaq üçün problemlərdən qaçmamaq əsas şərtdir. İnsanı narahat edən məsələlərin üstünə getmək, onların həlli üçün çalışmaq, düzgün insan olmaq, sosial çevrə ilə balansı saxlamaq, gündəlik qida, yuxu rejiminə diqqət yetirmək və insana pis təsir edən nüanslardan uzaq durmaq lazımdır.

Digər psixoloq ***Şahnaz Məmmədova***nın sözlərinə görə, insanın fizioloji cəhətdən sağlamlığı ilə bağlı problemlərinin aradan qaldırılması elə də böyük əziyyət tələb etmir. Məsələn, düşünək ki, başımız ağrıyır, dişimiz ağrıyır və sair. Həmin ağrıların qarşısını almaq üçün ya dərman atırıq, ya da həkimə müraciət edirik. Nəticə etibarilə, səhhətimizlə bağlı problemi aradan qaldırırıq. Amma bəzən elə xəstəliklər olur ki, tibb həmin xəstəliklər qarşısında aciz qalır. Bu cür xəstəliklərlə həkim bir müddət mübarizə apara bilir. Müəyyən vaxtdan sonra xəstəlik insanı öz cənginə alır və insan həyatı ölümlə nəticələnir. Halbuki dünyada milyonlarla insan ən ağır, çarəsiz xəstəliklərə belə dərmanla, həkim müdaxiləsilə deyil, yüksək motivasiya ilə güc gələ bilir. Düşünürəm ki, insanların mədəsini dərmanlarla doldurmaqla deyil, könlünü xoş sözlərlə oxşamaqla, ruhuna toxunmaqla müalicə etmək lazımdır.



Şahnaz Məmmədovaya "İnsanlar özlərində psixoloji problemlər olduğunu gördüyü halda nə üçün psixoloqa müraciət etməkdə tərəddüd edirlər?" sualını ünvanladıq. O bildirdi ki, təkcə Azərbaycanda deyil, bir çox ölkələrdə bu sahəyə vacib olmayan sahə kimi baxılıb. Bu səbəbdən də insanlarda psixoloqlara müraciət etməmək fikri formalaşıb. İnsanların öz problemlərini bilərək psixoloqlara müraciət etməmələrinin digər səbəbi isə ictimai təsiri düşünmələri ilə bağlıdır. Bu insanlar mövqeyini, cəmiyyətdəki nüfuzunu itirəcəkləri təlaşı ilə problemlərini gizlətməyə çalışırlar. Düşünürlər ki, insanlar onlara əvvəlki kimi yanaşmayacaqlar. Ancaq insanlar bu kimi stereotiplərdən yaxa qurtarmalı və psixoloji problemlərin ciddi fəsadlar yaratmaması üçün vaxtında psixoloqlara müraciət etməlidir.

Məsələn, kiçik bir misal çəkək. Uşaq inkişafdan qalır, davranışında qəribəliklər baş verir. Valideyn bunu görür və "böyüdükcə düzələr", – deyib əhəmiyyət vermir. Zaman keçdikcə asanlıqla korreksiya olunacaq psixoloji gərginlik dərinləşir və aradan qaldırılması çətinləşən psixoloji problem halına gəlir. Uşağının davranışındakı qüsurlardan narahat olan bir çox valideynlər isə vəziyyətin ən çətin halında pediatra, yaxud da nevropatoloqa müraciət edir. Uşaqda psixoloji problemin olduğunu müəyyənləşdirən həkim valideynə psixoloqa getməyi tövsiyə etdiyi zaman ailələrdə təşviş, həyəcan başlanır. Çünki bəzi insanlar düşünürlər ki, psixoloq yanına getsələr, onlara psixi xəstə kimi baxacaqlar. Bunu, xüsusilə vurğulamaq istərdim ki, autizm, Daun sindromlu, əqli inkişaf geriliyi, ümumi inkişaf ləngiməsi və buna bənzər digər narahatlıqlardan əziyyət çəkən uşaqların valideynləri problemlərini bildikləri zaman mütəxəssis dəstəyini övladlarından əsirgəməməlidirlər.

Bizə maraqlı olan digər sualımızı da psixoloqa ünvanlayırıq. Psixoloq, psixiatr və nevropatoloq. Bu peşə sahibləri arasındakı fərq nədir? Onun sözlərinə görə, psixiatr və nevropatoloq tibbi elmə malik olan həkimdir. Onlar stasionar, lazeret və ambulator müalicə sahəsində işləyirlər. Nevropatoloqlar, sinir, beyin və əzələ sistemi ilə əlaqəli olan sahəni, məsələn, baş ağrıları, sinir-əzələ ağrıları, qıcolmalar, beyin insultları, qan dövranı pozuntuları, unutqanlıq, psixiatrlar isə ruhi xəstəliklər, maniakal-depressiv psixozlar, adi dildə desək, əsəb pozuntuları xəstəliklərini müalicə edirlər. Müalicə yazan psixiatr və nevropatoloqun sahəsi sırf tibbdir. Psixoloqun öyrəndiyi sahə isə tibb və pedaqogikadır. Ona görə də psixologiya tibbi və pedaqoji psixologiya olmaqla, iki yerə bölünür. Psixoloq insanın ruh aləmini öyrənir. Klinik psixoloqun tibbi savadı olması mütləqdir. Pedaqoji psixoloqlar pedaqoji müəssisələrdə işlədiyinə görə onların tibbi biliklərə yiyələnməsi vacib deyil. Psixoloqun bilik dairəsi çox geniş olmalıdır. O, sosiologiya, tibb və idarəetmə sahəsini mükəmməl şəkildə bilməlidir. Özəlliklə uşaq psixologiyasını dərindən mənimsəməlidir. Bunları bilməyən psixoloq insanı düzgün istiqamətə yönəldə bilməz.

Psixoloqlarla maraqlı, eyni zamanda maarifləndirici söhbətimizdən belə qənaətə gəldik ki, insanın sağlam psixologiyaya sahib olması üçün üç amil əsas şərtdir: sağlam mühit, sağlam fiziologiya və sağlam düşüncə. Əgər biz özümüzü sevir, sağlamlığımızın qeydinə qalırıqsa, ilk növbədə, ətraf mühitin mənfi təsirlərindən qorunmalıyıq. Çünki ətraf mühitin mənfi təsiri psixologiyamıza, psixologiyamız yanlış düşüncə və sərt reaksiyalara, bunların hər biri isə fizioloji sağlamlığımıza zərər verəcək. Gəlin bacardığımız qədər mənfi təsirləri, neqativ düşüncələri özümüzdən uzaqlaşdıraq. Ruhumuzun sağlamlığı naminə!

**✍ Gülcamal TAHİROVA**

# "Araz-Naxçıvan"dan növbəti qələbə

*Futbol üzrə Azərbaycan I Divizionunda 2-ci turun oyunları keçirilib. Bu turda "Araz-Naxçıvan" "İmişli" Futbol Klubunun qonağı olub. Saatlı Olimpiya İdman Kompleksinin stadionunda keçirilən oyunu Cavid Cəlilov, Kərim Zeynalov, Şirmamed Mamedov və Elvin Bayramovdan ibarət hakimlər briqadası idarə edib.*

Oyunun ilk hissəsində rəqib qapısı önündə təhlükəli vəziyyətlər yaradan "qırmızı-ağlar" 20-ci dəqiqədə hesabı açıblar. Cərimə zərbəsində edilən asmanı Emil Bayramov başla qapıdan keçirib – 0:1. Qoldan sonra bir neçə epizodda Naxçıvan təmsilçisinin heyətində Orxan Əliyev, Bayraməli Qurbanov hesabı artırmağa yaxın olsalar da, qapıçının sayıqlığı buna imkan verməyib. İlk hissənin son dəqiqələrində "İmişli" komandası "status-kvo"nu bərpa etməyə yaxın olub. Lakin qapıçımız Vüsal Şabanov rəqib hücumçunun hesabı bərabərləşdirməsinə imkan verməyib.



İkinci hissənin əvvəlində oyunun gedişatını ələ alan "Araz-Naxçıvan" 57-ci dəqiqədə hesab arasındakı fərqi artırıb. Orxan Əliyev çoxgedişli kombinasiyanı məntiqi sonluqla başa vurub – 2:0. 2 dəqiqə sonra azarkeşlər daha bir qola şahidlik ediblər. Fərid Kərimzadə mükəmməl cərimə zərbəsi ilə hesabı 3:0 edib. Bu həm də oyunda vurulan sonuncu qol olub.

Ardıcıl iki qələbədən sonra hazırda "Araz-Naxçıvan" turnir cədvəlinə liderlik edir.

**✍ Ceyhun MƏMMƏDOV**

*Bu gün diyarımızın, demək olar ki, hər yerində qadınlarımız tərəfindən qış üçün müxtəlif cür yeməklər, salatlar, turşular, kompot və mürəbbələr hazırlanır. Yayın bolluğunu qışın yavanlığı bilən Ordubad sakinləri də qış üçün tədarük edirlər. Onlar badımcan, bibər, pomidor yeməkləri, alana və miyanpur hazırlayır, əriştə kəsir, turşu qoyurlar.*

*Naxçıvan mətbəxi*

# Yayın bolluğu – qışın ruzisi



Rayonda adət-ənənələrimizi yaşadan, hazırladığı müxtəlif məhsullarla alıcıların da diqqətini cəlb edən ***Natiqə Əliyeva*** ilə həmsöhbət oluruq. O deyir ki, Ordubad rayonu milli dəyərlərin yaşadıldığı, adət-ənənələrin qorunub saxlanıldığı bölgələrdən biridir. Həm də özünün bağçılıq ənənələri ilə tanınan rayonlardandır. Təmiz havası ilə seçilən bu diyarda kənd təsərrüfatı əhalinin başlıca məşğuliyyət sahəsidir. Bu gün təsərrüfat sahələrindən əldə etdiyimiz məhsullarla qışa hazırlaşır, həmçinin müxtəlif çeşiddə məhsulları sataraq dolanışığımızı təmin edə bilirik. Müxtəlif cür kompot, mürəbbə, meyvə, dərman quruları hazırlayaraq satan Natiqə xala hazırda rayonda qışa tədarük edilən məhsullar barədə məlumat verdi. Milli mətbəximizin sevilən yeməklərindən olan əriştənin hazırlanması barədə danışan müsahibim deyir: – Qızım, əvvəlcə un, duz və su ilə xəmir yoğururuq. Əriştənin xəmiri xüsusi səriştə ilə yoğrulmalıdır. Xəmir nə çox duzlu, nə çox duzsuz olmalıdır. Sonra yaxşıca acısın deyə üzərini örtüb yarım və ya bir saat onu "dincəlməyə" qoyur, sonra hasilə gələn xəmirdən kündə tuturuq. Onu da deyim ki, əriştə kəsmək zəhmət tələb edir. Onun üçün də yaxın qohum və qonşuları çağırır, beş-altı nəfərlə birgə səhərin erkən saatlarından işə başlayırıq. İki nəfər kündələnmiş xəmiri "əppək taxtası" üstə əvvəlcə "vərdənə" ilə yastılayır, sonra oxlovla nazik lavaş kimi açır, yapışmasın deyə üzərinə tez-tez un səpir, üst-üstə qatlayıb bıçaqla zolaq (dilim) şəklində kəsirik. Nə çox incə, nə də ki çox qalın kəsilməlidir, yoxsa bişəndə fərq



özünü göstərəcək. Kəsilən əriştə özəkçilərə ötürülür, iki nəfər özəkçi bunu əl ilə özəyir, "zəncir" kimi uzadır. Bir nəfər də onları həyətdə günəş yaxşı düşən yerdə ağaclardan bağlanmış qalın iplərin üzərindən sərir. Hər şey qaydasında aparılmasa, əriştə ipdə durmaz, tökülər. Bu ehtimalı nəzərə alıb əriştələrin altına parça, ya da süfrə açırlar ki, onu sərərkən və ya quruyarkən yerə düşməsin. Əriştə kəsimi vaxtı nahara elə təzə kəsilmiş və qurumuş əriştədən əriştə aşı



rülən işə qiymət verilir. Axşamüstü tam quruyan əriştəni ipdən toplayıb sərin yerdə qış üçün saxlayırıq. Qışda isə bir hissəsini sacda və yaxud sobada qovurur "çəkmə" adlı yeməkdə düyü ilə birgə istifadə edirik. Qışda ələyəzlə birgə hazırlanan əriştə aşı (şorbası) soyuqdəymənin bir nömrəli dərmanıdır. Bu gün ana-nənələrimizdən bizə ərmağan olan bu adət-ənənələrin yaşadılması gözəldir. Biz də bu ənənəni övladlarımıza, nəvələrimizə ötürürük.

Müsahibim deyir ki, hazırda qış üçün tədarük edilən məhsullardan biri də kələm turşusudur. Onu hazırlamaq üçün kələm və kökü doğrayırıq. Şüşə bankaya əvvəlcə kələm sonra üzərinə şüyüd, kərəvizin göyü və yaxud qurusunu, acı bibər və kökü əlavə edirik. Eyni qayda ilə hamısını lay-lay yığırıq.

Kənarda turşu üçün hazırlanan duzlu suyu kələmin üzərinə tökük, sərin yerdə saxlayırıq. Qoyulan turşunu 15-20 gündən sonra yeyə bilərsiniz.

hazırlayarıq. Onun içərisinə ləpə, yaxud bişmiş quru lobya, əlavə dad üçün isə nanə, gilənar və ərik qurusu əlavə edilir. Hamı bir yerdə bu ləzzətli yeməkdən dadır, eyni zamanda da gö-

Natiqə xala Ordubad alanası və miyanpuru haqqında da bizə danışır: – Alananı şaftalının nazlı, armudun isə əndiryanı və şəkəri növlərindən hazırlayırıq. Alana üçün əvvəlcə lazım olan meyvələr dərilir. Qabığı soyulub, ipə salınır, ya da adi formada günəşin daha çox düşdüyü yerdə beş-altı gün qurudulur. Bundan sonra həmin meyvələr saplağı tərəfdən dairəvi kəsilərək içərisindəki tumu çıxarılıb, yenidən gün düşən yerdə bir gün qalır. Ardınca çəkilmiş cəviz ləpəsi və şəkər tozunun qarışığından olan içlik quru meyvənin içərisinə doldurulur. İçliyə tam vermək üçün vanil, mixək, darçın, zəncəfil qatmaq olar. Sonra yenidən 10-15 alana bir sapa düzülür və üzərinə tənzif keçirilərək münasib bir yerdən asılır. Mənası ala-nəm sözündən götürülən, yalnız Ordubad rayonuna məxsus olan bu qədim və dadlı şirniyyat növünü qışda ağız ləzzəti ilə yeyir, eyni zamanda sata bilirik.

Miyanpur isə ərik və ya nazlı şaftalıdan (güştü) hazırlayırıq. Miyanpurun içinə alanadan fərqli olaraq hazırlanmış qarışım deyil, cəviz ləpəsi qoyulur və qurudulur. Hər iki şirniyyat növü qonaq qarşılayarkən, eyni zamanda bayram süfrələrinə xüsusilik və gözəllik qatır.

Atalar əbəs yerə demir ki, ehtiyat igidin yaraşığıdır. Beləliklə, də işgüzar, fərasətli xanımlarımız yay aylarında qışa tədarük etməklə soyuq aylar üçün lazımi qida ehtiyatlarını yaratmış olurlar.

**✍ Güntac ŞAHMƏMMƏDLİ**

**İtmişdir**

Baş gizir Məmmədov Əjdər Xəlil oğlunun adına olan hərbi vəsiqə itdiyindən etibarsız sayılır.

***

Hacıyev Elçin Allahverdi oğlunun adına olan 0800109392 nömrəli VÖEN itdiyindən etibarsız sayılır.


ŞƏRQ qapısı

Baş redaktor: MEHRİBAN SULTANOVA

Ünvan: AZ-7000, Naxçıvan şəhəri, "Təbriz" küçəsi 14.
Telefonlar: Məsul katib: 545-62-47
Şöbələr: 545-81-44, 545-51-18
Müxbirlər: 545-75-21, Faks: 544-52-52
E-mail: serqqapisi@nakhchivan.az

Qeydiyyat №: 575

Əlyazmalara cavab verilmir və onlar geri qaytarılmır

Nömrəyə məsul: Nail Əsgərov

Qəzet redaksiyanın kompüter mərkəzində yığılıb, səhifələnib və Əcəmi NPB-də ofset üsulu ilə çap olunmuşdur.

Tiraj: 1500. Sifariş № 766